**Zibeydə Arif qızı Şəkərəliyeva**
**i.f.d.,dos. Azərbaycan Dövlət İqtisad Universiteti.**
**E-mail: shakaraliyeva.zibeyda@gmail.com**
**UOT:338.33; JEL:E22;E27;D04;F13.**

# Azərbaycanın qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb olunmasının müasir aspektləri və perspektivləri

***Xülasə***

*Tədqiqatın məqsədi – ölkəmizin qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb olunmasının müasir aspektləri və perspektivlərinin tədqiqindən ibarətdir. Bunun üçün milli iqtisadiyyatın perspektivli sahələrinin investisiya cəlbediciliyi imkanları araşdırılmış və ümumiləşdirilmişdir. Xarici investisiyaların cəlbedilməsinin müasir problemləri baxılmış və açıqlanmışdır. İnvestisiya axınlarının intensivləşdirilməsi üçün zəruri tədbirlərin görülməsinin vacibliyi diqqətə çatdırılmışdır. İnvestisiya fəaliyyəti barədə qanunvericlik aktlarının stimullaşdırıcı xarakterlərinin yenidən baxılması və təkmilləşdirilməsi problemləri ümumiləşdirilmişdir. Qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb olunmasının perspektiv istiqamətləri üzrə təkliflər və tövsiyələr hazırlanmışdır. Tədqiqatın metodologiyası - kimi təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, qeyri-neft sektoru sahələrinin investisiya problemləri ilə bağlı müxtəlif alim və tədqiqatçıların yanaşmaları nəzərə alınmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti - əldə olunmuş nəticələrdən qeyri-neft sektorunun investisiya cəlbediciliyinin artırılması mexanizmlərinin işlənməsi və tətbiqi ilə əlaqəlidir. Tədqiqatın nəticələri – müasir şəraitdə qeyri-neft sektorunun müxtəlif sahələrinə xarici investisiyaların cəlb olunmasının sürətləndirilməsi üçün tədbirlər kompleksinin işlənməsi və fəaliyyət strategiyasının müəyyənləşdirilməsi istiqamətlərinə praktiki yanaşmalar müəyyənləşdirilmişdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə verilən materialların əhəmiyyətli hissəsi məqsədli tədqiqatdan irəli gəlmişdir və orijinallığı ilə fərqlənir. Mühüm elmi yenilik isə hazırkı dövrdə qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb olunmasının müasir aspektlərnə və perspektivlərinə obyektiv elmi-metodiki yanaşmanın təmin olunmasından ibarətdir. Xarici investisiyaların cəlb edilməsinin müasir reallıqları və problemləri nəzərə alınmaqla, perspektiv istiqamətlərin inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. Yaxın illərdə Azərbaycanda qeyri-neft sektoru sahələrinin inkişafının şaxələndirilməsi proseslərinə daha çox xarici investisiyaların cəlb edilməsi üzrə daha təsirli və məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqinin vacibliyi verilmişdir.*

***Açar sözləri:*** *Azərbaycan, qeyri-neft sektoru, investisiya, xarici investisiyalar, investisiya cəlbediciliyi, investisiya mühiti, qeyri-neft sektoru sahələri.*

## Giriş

Müasir şəraitdə ölkəmizə cəlb edilmiş xarici investisiyaların həcmi və strukturu lazımi səviyyədə olması, yəni onun indiki dövr üçün qənaətbəxş olması hələ ona dəlalət etmir ki, hökümət həyata keçirə biləcəyi tədbirlər sayəsində daha yaxşı nəticələrə nail ola bilməz. Belə ki, əldə olunmuş makroiqtisadi göstəriciləri daha üstün səviyyəyə yüksəltmək olar. Bunun üçün Azərbaycan hökuməti bir sıra məqsədyönlü və sistemli tədbirlər planı hazırlayıb həyata keçirməlidir. Belə tədbirlər sırasından İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış "Dövlət investisiya siyasəti" adlı proqram mühüm rol oynayır. 2008-2011-ci illər üçün "Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı" ölkə iqtisadiyyatının, əsasən qeyri-neft sektorlarının davamlı olaraq yüksək artım sürəti ilə dinamik və tarazlı inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha yüksək səviyyədə təmin olunmasına, regionlararası inkişaf fərqinin azaldılmasına, optimal sektor istehsal strukturuna nail olunmasına, ixrac potensialının yüksəldilməsinə,

ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin qorunmasına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin ardıcıl və əlaqəli şəkildə həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır. Bu dövlət proqramına əsasən ölkəyə cəlb ediləcək xarici investisiyaları regionlara əsasən kənd təsərrüfatı məhsullarının emalı sahələrinə, turizm sahəsinə, ixrac yönümlü məhsulların istehsalı sənayesinə və s. sahələrə yönləndiləcəkdir. Bunun üçün hökümət adıçəkilən sahələrdə və regionlarda xarici investorlar üçün münbit şərait yaratmalıdır [1]. Belə ki, ölkədə investisiya fəaliyyəti elə inkişaf səviyyəsinəçatmışdır ki, artıq xüsusi təşviq olunan sahələrdə yəni konkret istiqamətlərdə investisiya axınına ehtiyac duyulur [2]. Halbuki ümumi xarakterli və kütləvi investisiya axınını tələb edən sahələrdə müəyyən nailiyyətlər əldə edilib və investisiya bazarının bu seqmenti hələlik tarazlı vəziyyətə yetirilmişdir [3]. Müxtəlif ölkələrdəki iqtisadi islahatlar təcrübəsinin müqayisəli təhlili belə qənaətə gəlməyəəsas verir ki, gəlirlərin və mülkiyyətin bölüşdürülməsində həddən artıq bərabərsizliyin yaranması bütövlükdə cəmiyyətdə siyasi və sosial qeyri-stabilliyin yaranmasına gətirib çıxarır [4]. Bu isə son nəticədə iqtsadiyyatın investisiyalaşdırma səviyyəsinin aşağı düşməsinə və iqtisadi artımın ləngiməsinə səbəb olur [5]. Xarici investisiyaların cəlb edilməsi və kiçik və orta müəssisələrin inkişafı üçün əlverişli biznes mühiti zəruri amildir [6]. Qeyri-qənaətbəxş, yəni yüksək xərclər tələb edən, yubadılmalarla və risklərlə müşahidə edilən biznes mühiti iqtisadi inkişafı ləngidir və xarici investisiyaları "qorxudub" uzaqlaşdıra bilir. Xarici investisiyalar inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında xarici maliyyələşdirmənin ən böyük mənbəyini təşkil edir [7]. Dünya ölkələrinin təcrübəsi göstərir ki, indi dünyanın ən inkişaf etmişölkələri vəəlalxüsus da ən dinamik iqtisadi inkişafa malik ölkələr öz iqtisadiyyalarının inkişafını təmin etməkdən ötrü həm daxili investisiyalara həm də xarici investisiyalara geniş yer verirlər. Bələki, ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya və s. kimi inkişaf etmişölkələr dünya üzrə xarici investisiyaların ən böyük ixracatçıları olduqları kimi həm də xarici investisiyaların ən böyük idxalçılarıdır.

**Azərbaycanın qeyri-neft sektoru sahələrində xarici investisiyaların cəlbolunması proseslərinin təhlili**

Son onilliklərdə xarici investisiyaların cəlb olunması ilə bağlı kontekstdə yanaşdıqda qeyd etmək mümkündür ki, Azərbaycanda cəlb edilən xarici investisiyaların perspektiv inkişaf istiqaməti qeyri-neft sektoru ilə bağlıdır [8]. Məsələn, 1995-2015-ci ildə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna yatırılmış birbaşa xarici investisiyanın həcmi 9528,2 mln. ABŞ dolları təşkil etmişdir. Bununla beləölkə iqtisadiyyatına yatırlmış investisiyalrın yarıdan çoxu daxili investisiyalardır və bu investisiyaların əksər hissəsi 62%-i infrastruktur layihələrinə, 18%-i isə sosial sahələrə yatırılmışdır. Bu layihələrin məqsədi ölkənin iqtisadi-sosial vəziyyətinin daha da yaxşılaşdırılmasıdır. Çünki, Azərbaycanda hökümətinin məqsədi sosial yönümlü bazar iqtisadiyyatı qurmaqdır. Bu ali iqtisadi-sosial məqsədə nail olmaqdan ötrü dövlət hökmən iqtisadiyyata külli miqdarda investisiya cəlb etməlidir [9]. Bu yolda hökümət uzun müddətdir ki, qəti və sistemli addımlar atır. Son illərdə infrastruktur layihələrinə yatırılmış investisiyalar ona dəlalət edir ki, ölkədə iqtisadi inkişafı təmin etməkdən ötrü bizim iqtisadiyyat üçün yeni sahələrin inkişaf etməsinə və yeni-yeni istehsal və xidmət sahələrinin yaradılmasına imkan verən şəraiti formalaşdırmalıdır [10]. Məlumdur ki, lazımi infrastruktursuz iqtisadi inkişafa nail olmaq mümkün deyildir. Bu qeyd olunanları nəzərə alaraq, belə bir qənaətə gəlmək olar ki, Azərbaycana cəlb olunan xarici investisiyaların perspektiv istiqamətləri məhz kənd təsərrüfatı, turizm, ixrac yönümlü sənaye vəən yeni sənaye sahələri olacaqdır. Bu baxımdan aşağıdakı istiqamətlərdə xarici investisiyaların cəlb edilməsi Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətlidir. Tədqiqatlar nəticəsində belə bir qənaətə

gəlmək olar ki, respublikamızda xarici investisiyanın cəlb olunması üçün potensial sahələr bunlardır:

Sənaye sahəsi: Kimya, metallurgiya və energetika sənayeləri: nisbətən az enerji və su tutumlu yerli isfehlak və ixrac yönümlü polimer materialların istehsalı; yerli istehlak və ixracyönümlü qara metallurgiya məhsullarının istehsalı; əlvan metal və qırıntılarından yerli istehlak və ixrac yönümlü son məhsul istehsalı (alüminium oksidləri və emal olunmuş alüminium, mis, qızıl, gümüş, platin və s.); parfümeriya məhsullarının istehsalı; poliüretan məhsullanın istehsalı; alternativ və bərpa olunan enerji mənbələrindən enerji istehsalında istifadə olunan müxtəlif növ avadanlıqların istehsalı; bərk məişət tullantılanın təkrar emalı müəssisələri; energetika avadanlıqlarının istehsalı; plastik qab istehsalı; kommunal təsərrüfat avadanlıqlarının istehsalı. Maşınqayırma sənayesi və tikinti materiallarının istehsalı: mövcud maşınqayırma müəssisələrinin özəlləşdirilməsinə müasir texnologiyalar və müvafiq nou-hauya malik xarici investorların cəlb edilməsi; dəmir yolu və metropolitendə istifadə olunan vaqon, lokomotiv, eskalatorlar üçün ehtiyat hissələrinin hazırlanması və təmiri müəssisələri; inşaat materiallarının istehsalı; tibbi cihazlar və avadanlıqların istehsalı; məişət texnikasının istehsalı. Yeyinti və yüngül sənaye: pambıq və pambıq məhsullarının emalı; yun emalı; gön-dəri emalı; baramaçılıq təsərrüfatlarının yaradılması; yerli xammala əsaslanan toxuculuq və tikiş məhsullarının istehsalı; əl ilə toxunan xalçalar; yüksək keyfiyyətli ayaqqabı istehsalı; ağac emalı ve mebel istehsalı; tarixi-mədəni, milli-tətbiqi sənətkarlıq məhsullarının istehsalı (milli suvenirlər, hədiyyələr, mis qablar və s.); məhsulların qablaşdırılması üçün tara və avadanlıqlar istehsalı; ərzaq məhsullarının istehsalı; kənd təsərrüfatı məhsullarının emalı.

Aqrar sahə: Aqrar sektorun maddi-texniki bazası: kənd təsərrüfatı məhsullarının uzunmüddətli saxlanması məqsədilə regionlarda soyuducu kameralar, anbarlar, elevatorlar və s. ilə bağlı layihələr; kənd təsərrüfatı texnikası və ehtiyat hissələrinin, gübrələrin və bitki mühafizəsi vasitələrinin, baytarlıq preperatlarının istehsalı; heyvandarlıq və quşçuluq sənayesinin tələbatını təmin etmək üçün müasir tipli yem emalı müəssisələrinin tikintisi və məhsul istehsalı; un dəyirmanlarının tikintisi. Bitkiçilik: pambıqçılıq; üzümçülük, meyvəçilik; tütünçülük; şəkər çuğunduru; taxılçılıq; toxumçuluq, tingçilik təsərrüfatlarının yaradılması; tərəvəzçilik və bostançılıq; çayçılıq; yağlı bitkilər, zeytunçuluq, günəbaxan; ekoloji kənd təsərrüfatı məhsullarının istehsalı; intensiv bağçılıq təsərrüfatının yaradılması. Heyvandarlıq: cins heyvanların yetişdirilməsi üzrə təsərrüfatlar; quşçuluq, damazlıq quşçuluq; arıçılıq; balıqçılıq; damazlıq və südlük istiqamətli iribuynuzlu heyvandarlıq təsərrüfatlarının yaradılması.

İKT sahəsi: milli telekommunikasiya peykinin orbitə çıxarılması, kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində dövlət və özəl sektor arasında əməkdaşla xarici investorların cəlb edilməsi; İKT məhsullarının istehsalı; rəqəmsal yayımverici və qəbuledici avadanlıqların istehsalı; kompüter texnologiyaları; elm və texnologiyaya əsaslanan informasiya sahələr.

Turizm sahəsi: dağ idman növlərinin inkişafı; kurort-sanatoriya, turist-baza kompleksləri; müalicəvi turizm istirahət mərkəzləri; regionlarda mehmanxanalar. Qeyd etmək lazımdır ki, turizm təsərrüfatı və müalicə-istirahət kompleksinin geniş miqyasda inkişafıüçün Azərbaycan Respublikasında hər cür təbii və iqtisadi potensial mövcuddur. Bu sahənin inkişaf etdirilməsi üçün onun kifayət qədər yerli əmək ehtiyatları da vardır. Turizm sənayesinin başqa sahələrdən əsasən fərqləndirən cəhətlərdən biri də ona qoyulan vəsaitin tez bir zamanda böyük mənfəətlə geri qayıtmasıdır. Bu sahənin respublikamızda geniş miqyasda inkişafı üçün xeyli zəngin imkanlara malik olan müalicə-istirahət mərkəzlərinin yaradılması vacib məsələlərdən biri kimi qəbul olunmalıdır. Aqrar sahənin inkişaf etdirilməsi, onun sahə strukturunun təkmilləşdirilməsi üçün regionlarda kənd təsərrüfatı məhsullarının emalına

əsaslanan yeni sənaye mərkəzlərinin yaradılması tələb olunur. Bundan başqa kənd təsərrüfatının spesifik cəhətlərini nəzərə alaraq kənd əsərrüfatı məhsullarının regionlarda tədarükü vəsatışı ilə məşğul olan müəssisələrin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, hazırkı şəraitdə, xüsusilə, postpandemiya dövründə yığılan məhsulların müasir tələblər səviyyəsində saxlanılması məqsədi ilə müvafiq maddi-texniki bazanın yaradılması tələb olunur [11]. Burada aqroparkların yaradılması olduqca vacibdir.

Ölkədə elm və texnikanın ən son nailiyyətlərinin iqtisadiyyata tətbiq edilməsi və yeni istehsal sahələrinin yaradılması və sənaye sektorunda yeni texnologiyaların tətbiqi, təsərrüfat sahələrində maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasında və rəqabət qabiliyyətli məhsul və xidmətləri istehsalıölkə iqtisadiyyatıüçün müstəsna əhəmiyyət kəsb edir. Bu konteksdə ölkədə texnoparkların yaradılması və xarici investorların vəsaiti hesabına güclü elmi-texniki bazanın yaradılması bu istiqamətdə fəaliyyətdə nəzərə alınmalıdır. Nəhayət, ölkə iqtisadiyyatının mövcud strukturunu nəzərə almaqla konkret sahələrin inkişaf etdirilməsi məqsədilə sənaye məhəllələrinin yaradılması, xüsusilə Azad İqtisadi Zonaların təsis edilməsi istiqamətində fəaliyyəti sürətləndirmək lazımdır [12]. Respublika ərazisində AİZ-ların yaradılması məsələsində ilkin variant kimi ölkənin komunikasiya qovşaqlarından başlamaq lazımdır. Belə olan təqdirdəölkə iqtisadiyyatına külli miqdarda xarici investisiya cəlb edilə bilər. Buna misal olaraq Ələt qəsəbəsində yerləşən yeni Bakı limanının ərazisinin daxil olduğu Azad Ticarət zonasını göstərmək olar.

Azərbaycanda xarici investisiyaların ölkə iqtisadiyatına cəlb edilməsiyeni iqtisadi vəziyyət daha doğrusu iqtisadiyyatda baş verən dəyişikliklər konkret olaraq bu kimi istiqamətlərdə həyata кeçirilir: Respubliкa iqtisadiyyatına yeni texnika və texnologiyaların cəlb edilməsi; Respubliкada mövcud lakin, üzəçıxarılmamış və ya az istifadə olunan potensialın mənimsənilməsi; İxracın artması və idxalıəvəz edən sənayenin formalaşması; Təbii vəəmək ehtiyatları ilə zəngin regionların mənimsənilməsi; Yeni iş yerlərinin açılması və yeni istehsalat mədəniyyətinin formalaşdırılması; Respubliкada infrastrukturun inkişaf etdirilməsi; Ölkədə yeni sahibkarlıq formalarının tətbiqi. İnvestisiyalar müasir iqtisadi prosesin katalizatoru olmaqla bərabər beynəlmiləlləşən bir anlayışa çevrilmişdir [13]. Müasir texnologiyaların inkişafı, logistika və yük daşımasında əldə edilən uğurlar investisiya fəaliyyətində təsirsiz ötüşməmişdir. Sual meydana çıxa bilər ki, indiyə qədər investisiyalara bu amillər təsir etmirdimi? Əlbəttə ki, edirdi. Fəqət bu gün olduğu qədər etmirdi. Çünki investorlar əsas etibarilə daxilə yatırım etməkdə həvəsli olurdular. Bu onunla izah edilirdi ki, yatırımçılar beləliklə artıq risklərdən sığortalanmaq istəyirdilər. Xaricə investisiya qoyanlar isə istiqamətlənəcəkləri milli iqtisadiyyatı uzun müddət öyrənirdilər. Hal-hazırda isə hansı bir potensial məkanı öyrənmək üçün uzun müddət araşdırma aparmaq lazım deyildir. İnternet və elektron mətbuat bu işi zaman etibarilə çox qısaldıb. Deməli investisiya fəaliyyəti dəöz ləngliyini itirib. Digər tərəfdən kifayət qədər güclü transmilliləşmə prosesi gedibdir. Transmilliləşmə prosesi risklərin həm azalmasına, həm də qəribədir ki, çoxalmasına da səbəb ola bilir. Birinci halda investisiya qoyuluşlarıüçün müsbət imkanlar açılır. Çünki transmilli tərəfdaşlar investisiya toxunulmazlığının qorunması istiqamətində maraq nümayiş etdirirlər. Bu isə investisyaların təhlükəsizliyi üçün vacibdir.

**Qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunmasının perspektivləri və prioritetləri**

Qeyd edək ki, daxili və xarici investisiyaların stimullaşdırılması proqramının təşkilati-hüquqi təminatı qanunvericilik və normativ aktların qəbul edilməsinin mövcud sistemi çəçivəsində formalaşmalıdır. Dünyanın inkişaf etmiş xarici ölkələrinin təcrübəsi göstərir ki, ümumi daxili məhsulun tərkibində bütün mənbələr hesabına investisiya qoyuluşunun xüsusi

çəkisi 30-35% olduqda, bu istehsalın artımına, iqtisadi yüksəlişə zəmin yaradır və bu əsasda ölkə iqtisadiyyatı sürətlə inkişaf edir. Son dövrdə ölkə iqtisadiyyatının davamlı və sabit inkişafını təmin etməklə iqtisadiyyatın bütün sahələrinə xarici investisiyaların cəlb olunmasını stimullaşdırmaq məqsədilə güzəştli vergiqoyma, ikiqat vergiqoymadan azad etmə tətbiq edilir. Bu isə investisiyanın Azərbaycan iqtisadiyyatına axınını xeyli sürətləndirmişdir. Ölkədə investisiya fəallığını yüksəltmək məqsədilə 2001- ci ildən etibarən yeni gömrük tarifləri müəyyən edilmişdir. Respublikamızda istehsal olunmayan xammal və materiallara görə ödənilən gömrük tarifləri ləğv edilmişdir. Artıq 10 ildən çoxdur ki, ölkəmizdə istehsal olunan bu cür materiallar üçün gömrük tarifləri 15%-dən yuxarı olmaqla, istehsalçıların daxili bazarını təmin edə bilmək qabiliyyətindən asılı olaraq diferensiallaşdırılmış həcmdə təyin edilir. Onu da qeyd edək ki, ölkəmizdə istehsal olunan məhsullar üzrə bəzən gömrük dəyərinin 100 faizi həcmində tariflər nəzərdə tutulur. Eyni zamanda, ölkəmizdə istehsal olunmayan, lakin ilkin tələbat xarakteri daşıyan hazır məhsulların idxalına gömrük haqqı qoyulmur. Bütün bunlarla yanaşı, respublikamızda kənd təsərrüfatı məhsullarını istehsal edən müəssisələrə əhəmiyyətli dərəcədə güzəştlər verilməsi də investisiya fəallığını artırmağa xidmət edən mühüm tədbirlərdən sayılır. Belə ki, onlar, torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilmişlər. Respublika iqtisadiyyatının, o cümlədən sənayenin qeyri-neft sektorunun dinamik və davamlı inkişafının təmin olunması xeyli dərəcədə dövlətin investisiya siyasətinə yeni istiqamətlərin daxil edilməsindən asılıdır. Dövlətin investisiya siyasəti ölkənin davamlı iqtisadi artımına, yeni iş yerlərinin yaradılmasına, sənaye və kənd təsərrüfatında yeni texnologiya əsasında dərin struktur dəyişikliklərin əldə edilməsinə, bir sözlə milli iqtisadiyyatın möhkəm dayaqlar üzərində formalaşması və inkişafına yönəldilməlidir. İqtisadi inkişafın hazırki mərhələsində Azərbaycanın investisiya siyasətinin yüksək dövlət investisiyası, davamlı və tarazlı iqtisadi artımın təmin olunması, iqtisadi sistemdə mövcud olan disproporsiyaların bərpası, eləcə də regional inkişafın təmin edilməsi kimi prinsiplər üzərində qurulması zəruriliyini əsaslandırmağa çalışanlar heç də yanılmırlar. Neft gəlirlərinin ölkə iqtisadiyyatında rolu nə qədər yüksək olsa da, davamlı iqtisadi inkişafa digər investisiya resurslarını da hərəkətə gətirməklə nail olmaq mümkündür. Hal-hazırda respublikamızda qazanılan uğurlarla yanaşı, hesab edirik ki, ölkədə formalaşmış dövlətin investisiya siyasəti əsasən aşağıdakı əsas prinsiplərə söykənməklə həyata keçirilməlidir: İnvestorla qarşılıqlı münasibətlərdə xeyirxahlıq; İnvestorların bərabər hüquqlu olmalarının təmin edilməsi; İnvestisiya prosesinin həyata keçirilməsinin tam aydınlığı və sadəliyi;Qəbul edilən investisiya qərarlarında sağlam iqtisadi fikrin təminatı; Qəbul edilən investisiya qərarlarının dəyişməzliyi; Bütün investorlar üçün informasiyaların son dərəcə açıqlığı və anlaşılmazlığı. Azərbaycan Respublikasında investisiya fəaliyyətinin tənzimlənməsi məqsədlərinə aid edilən qanunvericilik və digər hüquqi-normativ aktlardan tam istifadə etmək məqsədəuyğundur [14; 15; 16; 17; 18]. Məsələn, 1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ölkə ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi məsələlərini tənzimləməklə investisiyanın ölkə iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmiş və mülkiyyət formasından asılı olmayaraq bütün investorların bərabər müdafiəsinə təminat verir [19].

Ölkə iqtisadiyyatına xarici investisiyaların axını olkənin ixracat potensialının genişləndirilməsinə, istehsalın inkişafına, əmək ehtiyatlarından tam və səmərəli istifadə edilməsinə, sahibkarlıq sahəsində muasir bazar munasibətlərinin mənimsənilməsinə, yeni texnologiyanın olkəyə gətirilməsinə və butovlukdə olkənin iqtisadi infrastrukturunun yenidən qurulmasına səbəb olmuşdur. Məhz bu baxımdan respublikada investisiya muhitinin

oyrənilməsi və bu sahədə olan problemlərin üzə cıxarılması aktual problemlərdən biri hesab edilmişdir [20]. Bazar iqtisadiyyatı şəraitində əmtəə istehsalcılarının investisiya fəallığı ilə gəlirlərdən tutulan vergi dərəcələri arasındakı asılılığı oyrənməyə yonəldilən Laffer nəzəriyyəsinə gorə vergilərin artırılmasının müəyyən həddi vardır. Həmin həddin aşması oz novbəsində işguzar fəallığın aşağı duşməsinə, bunun isə nəticədə budcənin gəlirlərinin azalmasına gətirib cıxara bilər. Respublikamızda əlverişli vergi muhitinin yaradılması məsələsi xarici investorları narahat edən başlıca problemlərdəndir. Xarici investorları vergi guzəşti və imtiyazlarından daha cox, oz fəaliyyətlərini uzun muddətə proqnozlaşdırmağa imkan verən vergi sisteminin sabitliyi və təkamulunun muəyyənliyi maraqlandırır. Respublikada həyata kecirilən vergi siyasətinin əsas istiqamətlərindən biri də əlverişli vergi muhitinin yaradılması vasitəsilə xarici investorların olkəyə cəlb olunmasıdır. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq muqavilələr bağlanmışdır. Bu muqavilələr əsasən investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka gorə vergilərə munasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat daşımalarını və kredit sazişlərini əhatə edir. Respublikada investisiya prosesinin inkişafına dovlət təsirinin gucləndirilməsi məqsədilə budcədə investisiya layihələrinə dovlət təminatlarının verilməsi nəzərdətutulmuşdur. Bu təminat xarici investisyanın qorunması haqqında Azərbaycan Respublikasının qanununda oz əksinin tapmışdır. Respublikada sabit investisiya muhitinin yaradılmasında əsas amil ilk novbədə xarici investorlar ucun əlverişli şəraitin təşkil edilməsidir. Respublikaya investisiyanın axıb gəlməsinin ən başlıca səbəbi onların bu əməliyyatdan lazımi mənfəət əldə etməsidir. Respublikamızın investisiya siyasətinin muhum istiqamətlərinə bu kimi məsələlər daxildir: mərkəzləşdirilmiş qaydada maliyyələşdirməni azaltmaqla onlardan əsasən umum dovlət obyektlərinə yonələn investisiyaların maliyyələşdirilməsi ucun istifadə edilməsi; investisiyaların ən cox iqtisadiyyatın prioritet sahələrinin inkişafına yönəldilməsi; mənzil kooperativlərinin tikintisi və digər investisiya layihələrinin reallaşdırılması ucun əhalidən toplanan resurslardan istifadənin genişləndirilməsi; investisiya sığortası uzrə huquqi bazanın yaradılması; investisiya tsiklinin davam etməsi muddətinin qısaldılması.

Ölkəmizdə xarici və daxili investisiya resurslarının səfərbərliyə alınması məqsədilə olkə iqtisadiyyatına investisiyanın cəlb edilməsi ucun Milli proqram işlənib hazırlanmışdır. Bu proqramda xarici və daxili investisiyanın cəlb edilməsinin prinsipləri və mexanizmləri oz əksini tapmış və eyni zamanda, investisiyanın prioritetsferası uzrə əməkdaşlıq və onun səmərəlilik formaları müəyyən edilmişdir. Respublikamızda investisiya fəaliyyətinin dovlət tənzimlənməsi dedikdə, olkədə vahid iqtisadi, elmi-texniki, sosial siyasətin həyata kecirilməsi ucun kompleks tədbirlər sistemi başa duşulur. Bu tədbirlərin maliyyələşdirilməsi dovlət, yerli budcələr və şəxsi vəsaitlər hesabına yerinə yetirilir. İnvestisiya qoyuluşları başlıca olaraq olkənin ictimai tələbatının odənilməsinə, iqtisadiyyatın strateji sahələrinin inkişafına yonəldilir. Təsərrufat və mulkiyyət formalarından asılı olmayaraq investisiya qoyuluşları fəaliyyətdə olan olkə qanunvericilik aktları ilə tənzimlənir. Qeyd etmək lazımdır ki, dovlət investisiya fəaliyyətinin tənzimlənməsində muxtəlif metodlardan (iqtisadi mexanizmlərdən) daha fəal istifadə etməlidir. Bu mexanizmlərə əsasən aşağıdakıları aid etmək olar:

- ⇨ Vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və guzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi;
- ⇨ Kredit və amortizasiya siyasətinin həyata kecirilməsi (o cumlədən əsas fondların surətli amortizasiyası yolu ilə);
- ⇨ Ayrı-ayrı region, sahə və istehsalatların inkişafı ucun subvensiya, subsidiya budcə borclarının verilməsi;

- Dovlət norma və standartlarının muəyyənləşdirilməsi;
- Antiinhisar tədbirlərin gorulməsi;
- Mulkiyyətin dovlətsizləşdirilməsi və ozəlləşdirilməsi;
- Torpaqdan, sudan və başqa təbii ehtiyatlardan istifadə şərtlərinin muəyyənləşdirilməsi;
- Qiymətqoyma siyasətinin həyata kecirilməsi;
- İnvestisiya layihələrinin ekspertizasının kecirilməsi.

İnvestisiyaların cəlb edilməsi sahəsində dovlət tərəfindən aparılan məqsədyonlu tədbirlər cərcivəsində Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti genişləndirilmiş, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması və ixracın təşviqi məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu yaradılmışdır [21]. Muasir dovrdə bu istiqamətdə olkə iqtisadiyyatında əhəmiyyətli keyfiyyət dəyişiklikləri aparılır. Belə ki, əsas investisiya siyasətinin formalaşmasına diqqət daha da artırılır. İnvestisiya siyasətinin ən muhum vəzifəsi movcud ehtiyatlardan səmərəli istifadə etməklə, vəsaiti elmi-texniki tərəqqinin surətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir. Azərbaycanda həyata kecirilən vergi islahatlarının əsas məqsədi xarici və daxiliiş adamları, investorlar ucun eyni səviyyəli vergi muhiti yaratmaqdan ibarətdir. İnvestisiya fəaliyyətinin vergi imtiyazı amortizasiya siyasəti ilə sıx əlaqədədir ki, bu da istehsal potensialının daha intensiv yeniləşdirilməsinə istiqamətləndirilmişdir. Təsərrufat subyektlərinin xususi investisiya istehsal resurslarına amortizasiya odənişlərinin əhəmiyyətini artırmaq ucun fikrimizcə, movcud amortizasiya normalarına yenidən baxılmasını surətləndirmək və onun yeni usullarının tətbiqini genişləndirmək məqsədəuyğundur. Respublikamızın iqtisadiyyatına mustəqillik əldə olunandan sonra Azərbaycan iqtisadiyyatına 280 milyard dollar həcmində sərmayə qoyulmuş və bunun da yarısını xarici investisiyalar təşkil edir. Umumiyyətlə, əhalinin rifahına duşən xarici investisiya həcminə gorə, hazırda olkəmiz Şərqi Avropa və MDB məkanında lider olkələrdən hesab edilir. Hazırda 2030-cu ilədək olan dövr üçün Milli Prioritetlər üzrə hədəflərin reallaşdırılmasına başlanılmışdır [22]. Digər tərəfdən, maliyyə xidmətlər bazarının genişləndirilməsi, o cümlədən, investisiya axınlarının intensivləşdirilməsi istiqamətində strateji yol xəritəsindən irəli gələn vəzifələr həyata keçirilməkdədir [23]. Eyni zamanda, 2019-2023-cü illəri əhatə edən Regional sosial-iqtisadi inkişaf üzrə Dövlət Proqramın icrası davam edir [24]. Başqa bir mühüm məsələ isə, işğaldan azad olunmuş ərazilərdə dövlət tərəfindən yatırılan məqsədli əsaslı vəsait qoyuluşları ilə bərabər, bu ərazilərin investisiya cəlbediciliyinin artırılması vəzifələri ortaya çıxmışdır [25].

**Nəticə**

Beləliklə, xarici investisiya siyasəti Azərbaycan dovlətinin umumi investisiya siyasətinin muhim tərkib hissəsi olub, milli iqtisadiyyatın yuksəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində ozunəməxsus rol oynayır. Bu sırada bir qrup vəzifələr və prioritetlər, perspektivli fəaliyyət istiqamətləri mövcuddur və onların nəzərə alınması vacibdir: bu qənaətə gəlmək olar ki, iqtisadiyyata investisiyaların cəlb edilməsi ucun əlverişli vergi muhutunun yaradılması respublikada aparılan vergi siyasətinin prioritet istiqamətlərindən biridir; ölkəmizdə aparılan iqtisadi siyasətin əsas istiqamətlərindən biri neft sektorunun inkişafı ilə paralel olaraq qeyri-neft sektorunun daha yuksək templə inkişaf etdirilməsini təmin etməkdən ibarətdir və qeyd olunmalıdır ki, bu sahədə nəzərdə tutulan inkişaf artıq reallığa cevrilmişdir; respublikamızda daxili və xarici investisiyaların kompleks proqramlarının stimullaşdırılmasının reallaşdırılmasında investisiya fəaliyyətinin qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi eləcə də zəruri təşkilati tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir; investisiyaların maliyyə, valyuta, vergi, gömrük, tarif və qeyri-tarif tənzimlənməsi haqqında qanunvericlik aktlarının və digər

normativ sənədlərin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına zərurət qalmaqdadır; ölkəmizdə xüsusi investisiya proqramları işlənib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xususiyyətləri və beynəlxalq təcrubə hər tərəfli oyrənilib nəzərə alınmalıdır. Bu zaman olkə iqtisadiyyatının inkişafı ucun strateji əhəmiyyət kəsb edən sahələrə, məsələn, qeyri-neft sektoru sahələrinə xarici kapitalın cəlb olunması diqqət mərkəzində olmalı və muhum vəzifə kimi qarşıda durmalıdır; qeyri-neft sektorunun ayrı-ayrı sahələri üzrə sistemli şəkildə investisiya proqramları və neft sektorundan alınan gəlirlərdən səmərəli istifadə etməklə, qeyri-neft sektoru sahələrinin dayanıqlı inkişaf etdirilməsi proqramları işlənib hazırlanmalıdır.

**Ədəbiyyat**

1. Əliyev, Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Nəşriyyatı, 2015.–185 s.
2. Frenkel, R. From the Boom in Capital Inflows to Financial Traps// Capital Market Liberalization and Development. New York: Oxford University Press, 2008, pp. 101-119.
3. Əhmədov, B.S. İnvestisiya resursları və onların formalaşdırılması yolları/ İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı, № 1, 2011, s.35-46.
4. Аксенова, Н.И., Приходько Е.А. Современные подходы к оценки инвестиционной привлекательности страны// – Инвестиционный потенциал, №32(416), 2010- С.46-53.
5. Джамалудинова, М. Ю. Инвестиционная политика как инструмент макроэкономического регулирования // Актуальные проблемы гуманитарных и естественных наук. 2014, № 7-1.
6. Аникеева, А.А., Чернолецкая, А.К. Анализ механизмов привлечения инвестиционных ресурсов в период кризиса // Экономика, предпринимательство и право. – 2021. Том 11. № 6.
7. Трандафил, Л.Ф., Добродомова, Т.Н. Теоретические аспекты определения инвестиционного климата, его сущность и роль, подходы к оценке. Актуальные проблемы экономики в условиях реформирования современного общества Материалы IV Международной научно-практической конференции, посвященной 140-летию со дня основания НИУ «БелГУ». 2016.
8. Guliyeva, A.E. Problems of financial and investment support modelling of the regional social and economic development// WSEAS Transactions on Business and Economics, Volume 17, 2020, Grecce, Art. #72, p. 741-752.
9. Məmmədova, E.B. İnvestisiya mühitinin səmərəliliyinin artırılması və fəallığının təmin edilməsinə strateji yanaşmaların əhəmiyyəti// "Xəbərlər" jurnalı. 2019. № 04. – s. 31-39.
10. Məmmədova, E.B. Azərbaycanda investisiya potensialının gücləndirilməsi və infrastrukturun yaradılması problemləri // "Geostrategiya" jurnalı, Bakı. 2020. № 03-04. – s. 51-55.
11. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri// Ş.T.Əliyev. – "Xəbərlər", AMEA İqtisadiyyat İnstitutu, №5, 2020. - s.5-12.
12. Əliyev, Ş.T. Xüsusi İqtisadi Zonalarda vergilərin mühüm aspektləri. // Azərbaycanın vergi jurnalı, Baki, 2014,№2, – s.149-160.
13. Humbatova, S., Hajiyev, N. Investment and loaning in Azerbaijan agriculture// – Bulgarian Journal of Agricultural Science. 26. 2020. – P.1116-1128.
14. "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" AR Prezidentinin Sərəncamı, Bakı,2006
15. İnvestisiya fondları haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 2010.
16. Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir.
17. Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 7 avqust 2020-ci il.
18. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2018.
19. İnvestisiya fəaliyyəti haqqında AR-nın Qanunu. 13 yanvar 1995-ci il, № 952.
20. Məmmədova, E.B. Ölkənin ticarət-logistika infrastrukturunun tranzit potensialından səmərəli istifadə olunmasında investisiya fəallığının rolu / "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda Respublika elmi konfransı. Sumqayıt Dövlət Universiteti. 2020.

21. AzPromo Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu. http://www.azpromo.az/.
22. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər./ – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
23. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.
24. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
25. Гусейнова, Н.Э., Яхьяева, А.Ю., Алиев, Ш.Т. Проблемы повышения инвестиционной привлекательности Карабахского региона Азербайджана и пути их решения /II International Scientific and Practical Conference current issues and prospects for the development of scientific research held on May 7-8, 2021 in Orléans, France. – p.13-19. https://ojs.ukrlogos.in.ua/index.php/interconf/issue/view/7-8.05.2021/534.

***Зибейда Ариф кызы Шакаралиева***

***Современные аспекты и перспективы привлечения иностранных инвестиций в ненефтяные отрасли Азербайджана***

***Резюме***

*Цель исследования – изучение современных аспектов и перспектив привлечения иностранных инвестиций в ненефтяной сектор нашей страны. С этой целью исследованы и обобщены возможности инвестиционной привлекательности перспективных направлений народного хозяйства. Рассмотрены современные проблемы привлечения иностранных инвестиций. Обращено внимание на важность принятия необходимых мер по интенсификации инвестиционных потоков. Обобщены проблемы совершенствования стимулирующего характера законодательных актов в сфере инвестиционной деятельности. Подготовлены предложения и рекомендации по перспективным направлениям привлечения иностранных инвестиций в ненефтяные отрасли. Методология исследования – использовались методы анализа, синтеза и обобщения. Наряду с этим учтены подходы различных ученых и исследователей к инвестиционным проблемам ненефтяных секторов. Практическая значимость исследования – связана с разработкой и применением механизмов повышения инвестиционной привлекательности ненефтяного сектора на основе полученных результатов. Результаты исследования – в современных условиях определены практические подходы к разработке комплекса мероприятий и определению стратегии действий по ускорению привлечения иностранных инвестиций в различные сферы ненефтяного сектора. Оригинальность и научная новизна исследования – значительная часть материалов, представленных в статье, получена в результате научных исследований и отличается своей оригинальностью. Важной научной новизной является обеспечение объективного научно-методического подхода к современным аспектам и перспективам привлечения иностранных инвестиций в ненефтяной сектор. С учетом современных реалий и проблем привлечения иностранных инвестиций обоснована необходимость разработки перспективных направлений. В последние годы придается значение разработке и применению более эффективных и результативных механизмов действия для привлечения большего объема иностранных инвестиций в процессы диверсификации развития ненефтяных секторов Азербайджана.*

***Ключевые слова:*** *Азербайджан, ненефтяной сектор, инвестиции, иностранные инвестиции, инвестиционная привлекательность, инвестиционная среда, сферы ненефтяного сектора.*

***Zibeyda Arif Shakaralieva***

***Contemporary aspects and perspectives of attracting foreign investments to the non-oil sector of Azerbaijan***

***Summary***

*Research purpose – is to study the modern aspects and perspectives of attracting foreign investments to the non-oil sector of our country.Therefore, the possibilities of investment attractiveness of promising areas of the national economy were investigated and summarized. The present problems of attracting foreign investments to the country were reviewed and explained. The importance of taking necessary measures for the intensification of investment flows was discussed. The problems of revising and improving the stimulating nature of legislative acts on investment activity were summarized. Proposals and recommendations on perspective directions of attracting foreign investments to non-oil sector areas were provided. Research methodology – in the article the methods of analysis, synthesis and generalization were used, also, the approaches of various scientists and researchers regarding the investment problems of non-oil sector areas were taken into account. The practical significance of a research - the obtained results are related to the development and application of mechanisms for increasing the investment attractiveness of the non-oil sector. Research results - in the study, practical approaches to developing a complex of measures and defining an action strategy for accelerating the attraction of foreign investments in various areas of the non-oil sector in present times were determined. The originality and scientific novelty of the research - a significant part of the materials presented in the article was obtained as a result of fundamental research and is distinguished by its originality. An important scientific novelty of the study consists in providing an objective scientific-methodical approach to the modern aspects and perspectives of attracting foreign investments to the non-oil sector. Considering the current realities and problems of attracting foreign investments, the need to develop perspective directions was justified. In short term, the importance of developing and applying more effective and productive action mechanisms for attracting foreign investments to the processes of diversification of the non-oil sector areas development in Azerbaijan was presented.*

***Keywords**: Azerbaijan, non-oil sector, investment, foreign investments, investment attractiveness, investment environment, areas of non-oil sector.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 08.07.2022.***
***Çapa qəbul olunub: 14.07.2022.***